Ölkə Prezidenti cənab İlham Əliyevin “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə” imzaladığı Sərəncama əsasən 8 il ərzində 5 min azərbaycanlı gəncin xarici ölkədə təhsil alması nəzərdə tutulub.

Hazırda bu proqram çərçivəsində ABŞ-da 7, Avstraliyada 2, Almaniyada 5, Böyük Britaniyada 8, İsveçdə 2, İsveçrədə 1, İspaniyada 1, Yaponiyada 1, Yeni Zellandiyada 1, Cənubi Koreyada 5, Niderlandda- 4, Rusiyada 20, Türkiyədə -10, Fransada 13, Çexiyada 1, ümumilikdə isə**81 azərbaycanlı tələbə** tibb, iqtisadiyyat, sənaye, İKT, elm, hüquq və incəsənət istiqamətləri üzrə təhsil alır.